# AVTOMOBIL NƏQLIYYATI VASITƏLƏRININ KOMPLEKS SIĞORTASI QAYDALARI

**B A K I 2010**

**ANLAYIŞLAR:**

Əgər məzmunda və müqavilədə (şəhadətnamədə) başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və anlayışlar aşağıdakı mənaları daşıyır:

**Sığortaçı** – sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində (onun ayrılmaz hissəsi olan bu Qaydalarda) nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda bu Qaydalarla müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan «AZSIĞORTA» ASC.

**Sığortalı** – sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi.

**Sığorta olunan** – bu Qaydaların məqsədləri üçün sığorta hadisəsi zamanı avtonəqliyyat vasitəsində olan və ya ona minən, yaxud ondan çıxan/düşən, avtomobili idarə etmək səlahiyyəti olan sürücü və/və ya sərnişinlərdir.

**Faydalanan şəxs** - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs.

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası.

**Françiza (azadolma məbləği) –** sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsi.

**Əhəmiyyətli hallar** – sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən hallar əhəmiyyətli sayılır.

**Səlahiyyətləndirilmiş sürücü** – sığorta müqaviləsində göstərilən və ya sığortaçı tərəfindən başqa cür təsdiq olunmuş, nəqliyyat vasitələrini idarə etmək üçün Azərbaycan Respublikasının qanunlarına və ya sürücülük vəsiqəsinin verilməsini nizamlayan qaydalara əsasən nəqliyyat vasitəsini idarə etmək üçün hüquq verilmiş və məhkəmə qərarı və ya digər səlahiyyətli orqanın qərarına əsasən nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməmiş şəxs.

**Avtonəqliyyat vasitəsi** – sığorta müqaviləsində göstərilən, bu sığorta qaydalarına uyğun olaraq sığorta olunmuş və ya istismarı ilə əlaqədar sığorta təminatının obyekti olan nəqliyyat vasitəsi.

**Avtonəqliyyat vasitəsinin istismar edilməsi** – Avtonəqliyyat vasitəsinin ərizə formasında, ərizə olmadan sığorta müqaviləsi bağlandığı hallarda isə sığorta şəhadətnaməsində (müqaviləsində) göstərilmiş məqsədlərə müvafiq olaraq istismar olunması.

**Avtonəqliyyat vasitəsinin tam məhv olması** – sığorta hadisəsi nəticəsində avtonəqliyyat vasitəsinə dəymiş zərərin aradan qaldırılması (təmiri) üçün tələb olunan xərclər sığorta dəyərinin 80 % - nə bərabər və ya çox olması avtonəqliyyat vasitəsinin tam məhv olması hesab edilir.

**Tibbi xərclər** – sığorta hadisəsi nəticəsində sığorta olunanların səhhətinə dəyən zərərlə əlaqədar olan tibbi xərclər.

**Ərizə** - sığorta olunmaq məqsədi ilə sığortalı tərəfindən doldurulan ərizə forması. Ərizə formasında sığorta obyektinə aid olan və sığortalı tərəfindən göstərilən bütün məlumat və halların həqiqətə uyğun və dolğun olması sığorta müqaviləsinin mühüm şərtidir.

**Sərnişin-** sığorta hadisəsi zamanı nəqliyyat vasitəsini idarə etməyən, lakin nəqliyyat vasitəsində olan şəxs.

## SIĞORTA OBYEKTI, SIĞORTA PREDMETI, SIĞORTA SINIFI

**Avtomobil nəqliyyatı vasitələrinin Gövdə (Kasko) sığortası** üzrə **sığorta obyekti** vətəndaşlara və hüquqi şəxslərə məxsus avtomobil nəqliyyatı vasitələri ilə bağlı onların əmlak mənafeləridir.

**Mülki məsuliyyət sığortası üzrə sığorta obyekti** vətəndaşlara və hüquqi şəxslərə məxsus avtomobil nəqliyyatı vasitələrinin istismarı zamanı baş vermiş qəzalar nəticəsində üçüncü şəxslər qarşısında yaranan mülki məsuliyyət nəticəsində itkilərə məruz qalması ilə bağlı onların (nəqliyyat vasitəsi sahiblərinin) əmlak mənafeləridir.

**Sərnişinlərin və sürücünün fərdi qəza sığortası** üzrə **sığorta obyekti** sərnişinlərin və sürücünün həyat və sağlamlığı ilə bağlı onların əmlak mənafeləridir.

**Avtomobil nəqliyyatı vasitələrinin Gövdə (Kasko) sığortası** üzrə **sığorta predmeti** sığortalanan avtomobil nəqliyyatı vasitəsidir.

**Mülki məsuliyyət sığortası** üzrə **sığorta predmeti** vətəndaşlara və hüquqi şəxslərə məxsus avtomobil nəqliyyatı vasitələrinin istismarı zamanı baş vermiş hadisələr üzrə yaranan mülki məsuliyyətdir.

**Sərnişinlərin və sürücünün fərdi qəza sığortası** üzrə **sığorta predmeti** müvafiq sərnişinlər və sürücünün həyat və sağlamlığıdır.

Avtomobil nəqliyyatı vasitələrinin kompleks sığortası növ kimi özündə aşağıdakı **sığorta siniflərini** birləşdirir:

1. avtomobil nəqliyyatıı vasitəsinin zədələnməsi, məhv olmasıı, həmçinin oğurlanmasıı nəticəsində sıığortalıının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarıında sıığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan **avtonəqliyyat vasitələrinin sıığortası sinifi**;

2. sığıortalıınıın özü, yaxud onun etibar etdiyi şşəxs sığortalanmış avtomobil nəqliyyatıı vasitəsindən istifadə edərkən üçüncü şəxslərə vurduğu zərərin əvəzini ödəmək öhdəliyi ilə əlaqədar onun əmlak mənafeləri ilə bağlı zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan **avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası sinifi**;

3. **sərnişinlərin və sürücünün fərdi qəza sığortası sinifi.**

## BÖLMƏ 1

## AVTOMOBIL NƏQLIYYATI VASITƏLƏRININ GÖVDƏ (KASKO) SIĞORTASI

### Maddə 1. Sığorta müqaviləsi

Bu bölməyə əsasən sığortaçı, sığorta müqaviləsində təsbit edilmiş sığorta haqqı müqabilində sığortalı ilə razılaşır ki, əgər sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində aşağıdakı hadisələrin (sığorta hadisələri) nəticəsində avtonəqliyyat vasitəsi, həmin avtonəqliyyat vasitəsinin təmir edilməsi və ya dəyişdirilməsini zəruri edən dərəcədə zədələnərsə, məhv olarsa və yə oğurlanarsa və belə zədələnmə, məhv olma və ya oğurluq bütün bölmələrə aid olan ümumi istisnaların və 1-ci Bölməyə aid olan xüsusi istisnaların qüvvəsi altına düşməzsə, sığortaçı sığortalıya belə zədələnmənin, məhvolmanın və ya oğurluğun nəticəsində dəymiş zərərin əvəzini

bu Qaydalarla nəzərdə tutulan qaydada nağd ödəmə, zədələnmiş nəqliyyat vasitəsinin əvəz edilməsi və ya təmir edilməsi (sığortaçının öz mülahizəsi əsasında) yolu ilə, sığorta müqaviləsində nəzərədə tutulan sığorta məbləği çərçivəsində ödəyəcəkdir:

1.1. Yol nəqliyyat hadisəsi (toqquşma, aşma, düşmə, toxunma, vurulma);

1.2. Siqaretdən baş verdiyi hal istisna olmaqla, yanğın, öz-özünə alışma, həmçinin ildırım vurması və partlayış;

1.3. Təbii fəlakətlər, o cümlədən zəlzələ, vulkan püskürməsi, yer sürüşməsi, tufan, fırtına, qasırğa, sel və daşqın;

1.4. Avtonəqliyyat vasitəsinin oğurlanması, bu zaman avtonəqliyyat vasitəsinə ziyan vurulması, avtonəqliyyat vasitəsinin hissələrinin oğurlanması, ön və arxa şüşələrin və pəncərələrinin sınması və üçüncü şəxslərin digər qeyri-qanuni qərəzli hərəkətləri;

1.5. Avtonəqliyyat vasitəsinə daşların dəyməsi və ya üzərinə əşyaların düşməsi.

## Maddə 2. Avtomobil nəqliyyatı vasitəsi

Avtomobil nəqliyyatı vasitəsi istehsalçı tərəfindən nəzərdə tutulmuş bütün komplekti ilə birlikdə sığortalanmış hesab olunur.

Sığorta müqaviləsində ayrıca olaraq göstərildiyi hallar istisna olmaqla, maqnitofonlar (avtomobil nəqliyyatı vasitəsinin istehsalı zamanı istehsalçı tərəfindən quraşdırıldığı hallar istisna olmaqla), radio ötürücü vasitələr, telefonlar, radar detektorları və ya hər hansı digər rabitə vasitələri və ya onların köməkçi aksessuarları, skanlaşdırma cihazları, televizorlar və stereo sistemləri də daxil olmaqla, hər cür səs, telefon, görüntü aksessuarlarına və cihazlara bu sığorta ilə təminat verilmir. Əlavə sığorta haqqı müqabilində, əlavə olaraq razılaşdırmaqla və sığorta şəhadətnaməsində ayrıca göstərməklə yuxarıdakı risklər təminata daxil edilə bilər.

## Maddə 3. 1 - ci Bölməyə aid xüsusi istisnalar

Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, aşağıdakılarla əlaqədar sığorta təminatı verilmir:

1. Sığorta hadisəsi sayılmayan hallar nəticəsində avtomobil nəqliyyatı vasitəsinin digər hissələri də eyni vaxtda zədələnməmişdirsə, avtomobil nəqliyyatı vasitəsinin təkər şinlərinin və disklərinin zədələnməsi;
2. Avtomobil nəqliyyatı vasitəsinin dəyərinin ucuzlaşması;
3. Avtomobil nəqliyyatı vasitəsinin vəziyyətini onun sığorta hadisəsindən əvvəlki vəziyyəti ilə müqayisədə yaxşılaşdıran hər hansı təmir, quraşdırma və ya dəyişdirilmə;
4. Əldən çıxmış fayda və digər dolayı itkilər;
5. Avtomobil nəqliyyatı vasitəsinin bütövlükdə və ya onun ayrı-ayrı hissə və qovşaqlarının təbii aşınması, onun əmtəə görünüşünün itməsi, istehsalat və ya təmir zamanı buraxılmış nöqsanlar;
6. Avtomobil nəqliyyatı vasitəsinin hissələrinin nasazlığı, yağlama vasitələrinin sızması, nəqliyyat vasitəsinin daxilinə xarici əşyaların və maddələrin düşməsi (hidro zərbə və s.) nəticəsində baş verdiyi hallar da daxil olmaqla, avtonəqliyyat vasitəsinin istismarı

nəticəsində onun hissələrinin, qovşaqlarının və ya aqreqatlarının sınması, sıradan çıxması və ya nasaz vəziyyətə düşməsi;

7. Yük avtomobilləri, minik avtomobillərinin yük daşıyan modifikasiyaları, qoşqu və yarım-qoşquların sığortası zamanı tentin zədələnməsi və ya oğurlanması;
8. Yük avtomobillərinə, beton qarışdıran avtomobillərə və bu kimi digər avtomobillərə tikinti işləri, istismarı zamanı tikinti meydançalarında dəymiş zərərlər;
9. Avtomobil nəqliyyatı vasitəsinin və ya ona mülkiyyət hüququnun digər şəxsə könüllü verilməsi nəticəsində, belə könüllü vermənin dələduzluq, mənimsəmə və ya aldatma niyyətilə qəsdən - fakt haqqında yalan təsəvvür yaratmanın nəticəsi olub-olmamasından asılı olmayaraq sığortalıya dəyən zərər;
10. Sığortalının, avtomobili idarə etmək hüququ olan sürücünün və ya sərnişinlərin sığorta hadisəsi baş verən zaman nəqliyyat vasitəsində olan əmlakına dəyən ziyan və ya belə əmlakın itməsi və ya məhv olması.
11. Hər hansı təmir vasitəsinin və ya alətinin oğurlanması;
12. Aşağıdakı hallar istisna olmaqla, qarajda və ya qapalı vəziyyətdə saxlanılmadığı hallarda, avtomobil nəqliyyatı vasitəsinin oğurlanması, oğurluğa cəhdin, vandalizmin və ya qərəzli hərəkətlərin nəticəsində avtomobil nəqliyyatı vasitəsinin məhv edilməsi və ya ona maddi ziyanın dəyməsi nəticəsində yaranan zərər:
    - i) Bütün qapıların, pəncərələrin və digər dəliklərin istehsalçının nəzərdə tutduğu vasitələrlə kilidlənməsi və açarların nəqliyyat vasitəsindən aralı və təhlükəsiz yerdə saxlanılması;
    - ii) Belə birbaşa maddi ziyan və ya oğurluq ilə əlaqəli olan hər hansı sığorta vəsatəsinin (tələbinin) zorakı daxil olmanın baş verməsini sübut edən dəlillərlə əsaslandırılması;
    - iii) Avtomobil nəqliyyatı vasitəsinin təchiz edildiyi, sığortaçıya bildirilmiş və onunla razılaşdırılmış siqnalizasiya və/və ya avtomobil nəqliyyatı vasitəsinin digər mühafizə sistemlərinin işlək vəziyyətdə olması və istifadə edilməsi;
13. Yazılı və ya şifahi formada olmasından asılı olmayaraq girov, şərtli satış, icarə və ya digər müqavilə və yaxud hər hansı razılaşma əsasında qanuni şəkildə girov saxlayan, alıcı, icarədar və ya avtonəqliyyat vasitəsi üzərində qanuni sahibliyi həyata keçirən digər şəxs tərəfindən saxlanılan avtonəqliyyat vasitəsinin qeyri-qanuni satışı, mənimsənilməsi və ya gizlədilməsi.
14. Nəqliyyat vasitəsinin yarışlarda, sürət testlərində, sınaqlarda və ya təlim məqsədilə istifadə olunması.
15. Mühərrikdə, soyutma sistemində, transmissiya qutusunda yağ və digər zəruri mayelərin olmaması, həmçinin donma, xarab olma, köhnəlmə, çürümə, paslanma və baxımsızlıq nəticəsində nəqliyyat vasitəsinə ziyan dəyməsi.
16. Nəqliyyat vasitəsində onun texniki göstəricilərindən artıq sayda və ya ağırlıqda sərnişin və ya yük daşınması.

## Maddə 4. Sığorta ödənişi

1. Sığortaçı sığortalıya dəymiş zərərin əvəzini aşağıdakı qaydada ödəyir:
    - i) Avtonəqliyyat vasitəsinə qismən ziyan dəydikdə aşağıdakı məbləğlərdən ən az olanı:

a. ziyan çəkmiş avtonəqliyyat vasitəsinin texniki və xarici vəziyyətinin ziyanın vurulduğu andan əvvəl olan vəziyyətinə qaytarılması üçün zəruri olan təmir xərcləri (ehtiyyat hissələr və əmək haqqı) və ya

b. onun zədələnmiş müvafiq hissələrinin eyni növlü və keyfiyyətli hissələrlə dəyişdirilməsi xərcləri;

Şəhadətnamədə nəzərdə tutulduğu halda, ehtiyyat hissələrinin əvəzinin ödənilməsi xərcləri sığorta müqaviləsində təsbit edilmiş aşınma faizinə müvafiq olaraq azaldılır.

ii) Avtonəqliyyat vasitəsinin tam məhv olması halında aşağıdakı məbləğlərdən ən az olanı:

a. Sığortaçının avtonəqliyyat vasitəsinin qalıqlarına olan hüquqlarından imtina etməsi şərtilə, avtonəqliyyat vasitəsinin (onun qalıqlarının) sığorta hadisəsinin baş vermə anından sonrakı vəziyyətinə uyğun gələn bazar qiyməti çıxılmaqla, onun sığorta hadisəsinin baş vermə anından əvvəlki bazar qiyməti,

b. ziyan dəymiş avtonəqliyyat vasitəsinin eyni növlü, keyfiyyətli və işlək vəziyyətli digər avtonəqliyyat vasitəsi ilə əvəz edilməsi xərcləri, və ya

c. Sığorta müqaviləsində göstərilmiş avtonəqliyyat vasitəsi üzrə müəyyən edilmiş sığorta məbləği.

iii) Avtonəqliyyat vasitəsinin oğurlanması halında aşağıdakı məbləğlərdən ən az olanı:

a. Oğurlanmış avtonəqliyyat vasitəsinin eyni növlü, istehsal tarixli və keyfiyyətli digər avtonəqliyyat vasitəsi ilə əvəz edilməsi xərcləri, və ya

b. Sığorta müqaviləsində göstərilmiş avtonəqliyyat vasitəsi üzrə müəyyən edilmiş sığorta məbləği.

Avtonəqliyyat vasitəsinin təmir xərcləri sığortaçının (və yaxud sığortaçının təyin etdiyi köməkçi şirkətinin) seçdiyi təcrübəli təmir emalatxanaları tərəfindən aparılmış ilkin hesablamalar əsasında müəyyən edilir.

2. Sığorta müqaviləsi ilə təminat verilən zərərlərin azaldılması üçün çəkilmiş zəruri və əsaslandırılmış xərclər:

Bu sığorta qaydaları ilə təminat verilməsi şərtilə, avtonəqliyyat vasitəsinə birbaşa ziyan vurulması nəticəsində sığortalının çəkdiyi zəruri yedəkləmə və saxlama xərcləri də daxil olmaqla, sığorta müqaviləsi ilə təminat verilən zərərlərin azaldılması və qarşısının alınması məqsədilə çəkilən zəruri, ağlabatan və sənədləşdirilmiş xərclər sığortaçı tərəfindən ödənilir. Yuxarıda sadalananlardan asılı olmayaraq, yedəkləmə və saxlama xərclərinə münasibətdə verilən sığorta təminatı sığorta müqaviləsində göstərilmiş sığorta məbləğinə əlavə təşkil etməklə, heç bir halda sığorta məbləğinin 7,5%-ni aşmayacaq.

## Maddə 5. Sığorta məbləği

Sığorta müqaviləsində təsbit edilmiş və sığortaçının məsuliyyətinin son həddi hesab olunan sığorta məbləği tərəflərin razılığı əsasında müəyyən olunur və avtonəqliyyat vasitəsinin sığorta müqaviləsinin bağlandığı yerdə və tarixdə olan faktiki dəyərindən (bazar qiymətindən) artıq ola bilməz.

Sığorta məbləği və ya avtomobilin dəyəri haqqında tərəflər razılığa gələ bilmədikdə onlar müstəqil qiymətləndiriciləri dəvət etməyə haqlıdırlar.

## Maddə 6. Ön və arxa şüşələrə və pəncərələrə dəymiş ziyan

Sığortaçı sığorta olunmuş avtomobil nəqliyyatı vasitəsinin ön şüşəsinə, arxa şüşəsinə və pəncərələrinə vurulmuş ziyanin əvəzini sığortalıya aşağıda göstərilən qaydada ödəyir:

6.1 Ön şüşənin, arxa şüşənin və/və ya pəncərələrin sınması və sığortalanmış avtonəqliyyat vasitəsinin gövdəsinin sınmış şüşə ilə cızılması və zədələnməsi hallarında sığorta ödənişinin məbləği ön şüşənin, arxa şüşənin və/və ya pəncərənin dəyişdirilməsi və ya belə ziyanın təmiri xərclərindən ibarət olacaqdır.

Bəzi hallarda riskin xarakterindən asılı olaraq, şüşə və pəncərələrə dəyən ziyanın ödənilməsi üçün hadisə üzrə və ya illik maksimum hədlər, hətta ayrıca azadolma məbləği nəzərdə tutula bilər. Bu zaman sığorta şəhadətnaməsində müvafiq qeyd-şərt edilməlidir.

Bu maddənin müddəaları yalnız eyni hadisə nəticəsində avtonəqliyyat vasitəsinə hər hansı başqa ziyan dəymədikdə və ya o zədələnmədikdə tətbiq edilə bilər. Əgər ziyan sığorta hadisəsinin nəticəsi olaraq, avtomobilə başqa ziyan dəyməsi ilə bərabər ortaya çıxmışdırsa, o zaman ödəniş Qaydaların 4 – cü maddəsində müəyyən edilmiş ziyanın ödənilməsinin ümumi qaydası əsasında həyata keçirilməlidir.

## Maddə 7. Qismən və ikili (çoxqat) sığorta

Sığorta müqaviləsində (şəhadətnaməsində) göstərilən sığorta məbləği avtonəqliyyat vasitəsinin sığorta hadisəsi zamanı faktiki dəyərindən (bazar qiymətindən) az olarsa, sığortaçı dəymiş zərərin əvəzini sığorta məbləğinin avtonəqliyyat vasitəsinin faktiki dəyərinə (bazar qiymətinə) nisbəti əsasında ödəyir.

Sığorta məbləği avtomobil nəqliyyatı vasitəsinin sığorta müqaviləsi bağlandığı andakı həqiqi dəyərindən - sığorta dəyərindən çox olduğu halda (ikili və ya çoxqat sığorta halında), həmin müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində etibarsızdır.

## Maddə 8. Qalıqlara olan hüququn keçməsi

Avtomobil nəqliyyatı vasitəsinin tam məhvi və ya onun oğurlanması nəticəsində sığortalıya dəymiş zərərin əvəzini ödəyən və yaxud qismən zərərlərdə onun ayrı-ayrı hissələrini dəyişdirən sığortaçı nəqliyyat vasitəsinin qalıqlarına olan hüquqlarından istifadə etmək qərarına gələrsə, sığortalının avtonəqliyyat vasitəsinə, onun qalıqlarına və ya dəyişdirilmiş hissələrinə olan hüquqları, sığortaçıya keçir. Bu halda, sığortalı həmin hüquqların sığortaçıya keçməsi üçün bütün zəruri tədbirləri (o cümlədən, müvafiq icra hakimiyyəti orqanlarında avtomobil nəqliyyatı vasitəsinin qeydiyyatdan çıxarılması və sığortaçının adına qeydiyyata salınması ilə bağlı olan işləri) görməyə borcludur. Lakin, sığortalı sığortaçının razılığı olmadan nəqliyyat vasitəsinə (onun qalıqlarına və dəyişdirilmiş ehtiyat hissələrinə) olan hüquqlarından başqa şəxsin xeyrinə imtina etmək hüququna malik deyildir.

Sığortalı bu sığorta Qaydalarına əsasən tam məhv olmuş sayılan avtomobil nəqliyyatı vasitəsini öz mülkiyyətində saxlamaq qərarına gələrsə, bu halda sığorta ödənişinin maksimum məbləği sığortaçının avtonəqliyyat vasitəsinin qalıqlarına olan hüquqlarından imtina etməsi şərtilə, avtonəqliyyat vasitəsinin (onun qalıqlarının) sığorta hadisəsinin baş vermə anından sonrakı vəziyyətinə uyğun gələn bazar qiyməti çıxılmaqla, onun sığorta hadisəsinin baş vermə anından əvvəlki bazar qiymətini təşkil edəcəkdir.

Oğurlanmış avtonəqliyyat vasitəsi sığorta ödənişinin verilməsindən sonra tapılarsa, sığortaçı öz mülahizəsi əsasında avtonəqliyyat vasitəsini özündə saxlaya və yaxud onu sığortalıya qaytara

bilər. Ikinci halda avtonəqliyyat vasitəsinə görə alınmış sığorta ödənişi sığortaçıya geri qaytarılmalıdır. Bu halda sığortaçı avtonəqliyyat vasitəsinə oğurluq nəticəsində dəymiş zərərə görə bu qaydaların müddəaları və istisnalarına müvafiq olaraq məsuliyyət daşıyacaqdır.

## BÖLMƏ 2

## MÜLKI MƏSULIYYƏT SIĞORTASI

### Maddə 9. Sığorta müqaviləsi

Bu bölməyə əsasən verilən sığorta təminatına görə sığortaçı, sığorta müqaviləsində təsbit edilmiş sığorta haqqı müqabilində sığortalı ilə razılaşır ki, əgər sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsi bütün bölmələrə aid olan Ümumi Istisnalar və 2-ci bölməyə aid olan Xüsusi Istisnalarda göstərilmiş səbəblər istisna olmaqla, başqa səbəblərdən üçüncü şəxsə bədən xəsarəti yetirilməsi, onun ölümü və ya əmlakına ziyan dəyməsi ilə nəticələnən və sığortalının mülki məsuliyyətinin yaranmasına səbəb olan qəza törədərsə, sığortaçı sığorta müqaviləsində təsbit edilmiş məsuliyyət həddi çərçivəsində sığortalıya, onun üçüncü şəxslərə ödəmək üçün mülki məsuliyyət daşıdığı zərərlərin əvəzini aşağıda göstərilən qaydada ödəyəcəkdir.

Sığortaçı, hətta sığortalıya qarşı irəli sürülmüş tələb və ya iddiaların əsassız, saxta və ya yalan olması halında belə ölüm, bədən xəsarəti və ya əmlaka ziyan vurulması ilə əlaqədar olaraq sığortalıya qarşı irəli sürülmüş tələb və ya iddialarla bağlı sığortalını müdafiə etmək hüququna və belə tələb və iddiaların araşdırılması və həllində tam sərbəstliyə malikdir. Lakin, əgər sığortaçı sığorta müqaviləsində təsbit olunmuş və məsuliyyətinin son həddi olan məbləği ödəmişdirsə, sonradan ortaya çıxan hər hansı tələb və ya məhkəmə qərarları ilə bağlı məbləği, yaxud iddianın müdafiəsi ilə əlaqədar məhkəmə və digər xərcləri ödəməyəcəkdir.

Bu Qaydalar çərçivəsində mülki məsuliyyət sığortası nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə tələb olunan məsuliyyət hədlərindən artıq olan hissədə sığorta təminatı verir.

Avtonəqliyyat vasitəsi Azərbaycan Respublikasının ərazisindən kənarda, lakin sığorta müqaviləsində göstərilmiş ərazi hüdudları çərçivəsində yerləşdikdə, sığorta təminatı hər hadisə üçün sığorta şəhadətnaməsində göstərilən məbləğdə azadolma məbləği tətbiq edilməsi şərtilə verilir.

Məsuliyyəti sığortalanan şəxs hüquqi şəxs olarsa, həmin hüquqi şəxslə yanaşı sığorta müqaviləsində avtomobili idarə etmək hüququ olan sürücü kimi göstərilən işçilərinin məsuliyyəti də sığortalanmış hesab edilir.

### Maddə 10. 2-ci Bölməyə aid xüsusi istisnalar

Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, bu sığorta ilə aşağıdakılara təminat verilmir:

1. Sığortalının işçisinin avtonəqliyyat vasitəsinin sərnişini qismində, sığortalı ilə əmək münasibətlərindən irəli gələn peşə vəzifələrinin icrası zamanı və bununla bağlı ölməsi və ya bədən xəsarəti alması nəticəsində yaranan məsuliyyət;
2. Avtonəqliyyat vasitəsinin sərnişini kimi hərəkət edən sığortalının hər hansı ailə üzvlərinə münasibətdə yaranan məsuliyyət;

3. Sığortalının hər hansı müqavilə ilə öz üzərinə götürdüyü və belə müqavilə olmadan yarana bilməyən hər hansı məsuliyyət;
4. Avtonəqliyyat vasitəsinin altında olan hər hansı körpüyə, viaduka, nəqliyyat magistralına və ya bunlara bənzər başqa tikiliyə avtonəqliyyat vasitəsinin normal hərəkəti zamanı və ya onun daşıdığı yükün ağırlığı nəticəsində dəyən ziyan.
5. Əldən çıxmış fayda və ya digər dolayı zərərlər üçün məsuliyyət;
6. Cərimələr və ya mənəvi zərərlər üçün təzminat ödəmək öhdəliyi;
7. Avtomobilin hərəkəti zamanı çirklənmə, buxarlanma, his, tüstü, işlənmiş qaz, turşular, qələvilər, toksik kimyəvi maddələr, mayelər və ya qazlar, materialların tullantıları və ya qıcıqlandırıcı təsiri olan başqa zəhərli və çirkləndirici maddələrin torpağa, atmosferə və hər hansı su kanallarına və ya hovuzlara ifraz edilməsi, axması və ya tullanmasından irəli gələn məsuliyyət.

### Maddə 11. Sığorta ödənişi

Sığortaçı sığorta hadisəsi nəticəsində sığortalının aşağıdakı xərclərinin əvəzini sığorta məbləği həddində ödəyir:

1. Sığortaçının ilkin razılığı əsasında sığortalı ilə zərər çəkmiş üçüncü şəxslər arasında məhkəmədən kənar razılaşma əsasında müəyyən edilmiş təzminat öhdəliklərinin məbləğinin;
2. Üçüncü şəxslərə zərər vurulması ilə əlaqədar olaraq məhkəmə qərarı ilə sığortalının üzərinə qoyulan təzminat ödənişlərinin;
3. Sığortaçının ilkin razılığı əsasında üçüncü şəxslərin irəli sürdüyü tələblərdən müdafiə olunmaq və bu tələblərin tənzimlənməsi məqsədi ilə sığortalının çəkdiyi bütün xərclərin;
4. Sığortaçının təminat verdiyi və onun göstərişlərinə əməl edilməsi üçün zərərlərin azaldılması məqsədilə çəkilən zəruri, əsaslandırılmış, ağlabatan və sənədləşdirilmiş xərclərin.

Yuxarıda sadalanan bütün xərclərə münasibətdə sığortaçının məsuliyyətinin yekun həcmi heç bir halda sığorta müqaviləsində təsbit edilmiş müvafiq məsuliyyət həddini aşa bilməz.

## BÖLMƏ 3

## SƏRNIŞINLƏRIN VƏ SÜRÜCÜNÜN FƏRDI QƏZA SIĞORTASI

### Maddə 12. Sığorta müqaviləsi

Bu bölməyə əsasən verilən sığorta təminatına görə sığortaçı, sığorta müqaviləsində təsbit edilmiş sığorta haqqı müqabilində sığortalı ilə razılaşır ki, əgər sığortanın qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsinin Bütün Bölmələrə aid olan Ümumi Istisnalar və 1-ci və 3-cü Bölmələrə aid olan Xüsusi Istisnalarda göstərilmiş səbəblər istisna olmaqla, başqa səbəblərdən qəza törətməsi nəticəsində Sığortalanmış şəxsin (sürücünün) və sərnişinlərin həyat və sağlamlığına ziyan dəyərsə, və ya ölərlərsə sığortaçı sürücüyə, sərnişinlərə və ya onların varislərinə bu qaydaların 14-ci maddəsinə müvafiq olaraq zərərin əvəzini ödəyəcəkdir.

**Maddə 13. 3 - cü Bölməyə aid xüsusi istisnalar**

Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, bu sığorta ilə aşağıda sadalananların nəticəsi olaraq sürücü və sərnişinlərin xəsarət alması, ümumi əmək qabiliyyətini itirməsi və ya ölümü hallarına təminat verilmir:

1. Intihar, intihara cəhd və ya özünə qəsdən bədən xəsarəti yetirmə;
2. Avtonəqliyyat vasitəsini idarə edən sürücünün sərxoş və ya ruhi pozğunluq vəziyyətində olması;
3. Insan həyatını xilas etmək məqsədi ilə edildiyi hallar istisna olmaqla, bilərəkdən özünü təhlükə altına atma.

**Maddə 14. Sığorta ödənişi**

Sığorta ödənişinin həcmi qəza nəticəsində alınan zədələrin ağırlığından asılı olaraq sığorta məbləğinin aşağıdakı faizlərini təşkil edir:

1. Ölüm halında – 100 %;
2. Fərdi qəzanın nəticəsi olaraq əmək qabiliyyətinin tam və ya qismən, daimi və ya müvəqqəti itirilməsi:

| **Əlillik** | **Sığorta məbləğindən %-lə** |
|---|---|
| Hər iki gözdə görmə qabiliyyətinin tam itirilməsi | 100 |
| Tam müalicəolunmaz psixoz | 100 |
| Hər iki qolun və ya hər iki əlin itirilməsi | 100 |
| Hər iki qulağın travma mənşəyi ilə tam karlığı | 100 |
| Aşağı çənənin çıxardılması | 100 |
| Nitqin tam itirilməsi | 100 |
| Bir qolun və bir ayağın tam itirilməsi | 100 |
| Bir qolun və bir ayaq pəncəsinin tam itirilməsi | 100 |
| Bir əlin və bir ayaq pəncəsinin tam itirilməsi | 100 |
| Bir əlin və bir ayağın tam itirilməsi | 100 |
| Hər iki ayağın tam itirilməsi | 100 |
| **BAŞ** | |
| Kəllə sümüyünün bütün qalınlığı boyu zədələnməsi | |
| - ən azı 6 $sm^2$ olan səth | 60 |
| - 3 $sm^2$ –dən 6 $sm^2$ – dək olan səth | 30 |
| - 3 $sm^2$ –dən az olan səth | 20 |
| Aşağı çənənin qismən, qalxan hissəsinin bütünlükdə və ya yuxarı çənə sümüyünün yarısının çıxardılması | 40 |
| Bir gözün tam itirilməsi | 40 |
| Bir qulağın tam karlığı | 30 |

| | |
|---|---|
| | |

## YUXARI ƏTRAFLAR

| Əlillik | SAĞ | SOL |
|---|---|---|
| Bir qolun və ya bir əlin itirilməsi | 60 | 50 |
| Qol sümük maddəsinin əsaslı zədələnməsi (müəyyənləşdirilmiş və müalicəolunmaz zədələnmə) | 50 | 40 |
| Yuxarı ətrafların tam iflici (sinirlərin müalicəolunmaz zədələnməsi ) | 65 | 55 |
| Dolanan sinirin tam iflici | 20 | 15 |
| Bazunun ankilozu | 40 | 30 |
| Əlverişli vəziyyətdə fiksə edilərək dirsəyin ankilozu (düz bucaqdan 15 dərəcə aralı) | 25 | 20 |
| Əlverişsiz vəziyyətdə fiksə edilərək dirsəyin ankilozu | 40 | 35 |
| Iki bazu önü sümük maddəsinin əsaslı itirilməsi (müəyyənləşdirilmiş və müalicəolunmaz zədələnmə) | 40 | 30 |
| Orta sinirin tam iflici | 45 | 35 |
| Bağlama yerində mil sinirinin tam iflici | 40 | 35 |
| Bazu önünün mil sinirinin tam iflici | 30 | 2 |
| Əlin mil sinirinin tam iflici | 20 | 15 |
| Dirsək sinirinin tam iflici | 30 | 25 |
| Biləyin əlverişli vəziyyətdə fiksə edilərək ankilozu (düz və əlin üstü vəziyyətdə) | 20 | 15 |
| Biləyin əlverişsiz vəziyyətdə fiksə edilərək ankilozu (bükmə və deformasiyalı açma və ya çevrilmiş vəziyyətdə) | 30 | 25 |
| Baş barmağın tam itirilməsi | 20 | 15 |
| Baş barmağın qismən itirilməsi (dırnaq falanqası ) | 10 | 5 |
| Baş barmağın tam ankilozu | 20 | 15 |
| Şəhadət barmağının tam amputasiyası | 15 | 10 |
| Şəhadət barmağının iki barmaq sümüyünün tam itirilməsi | 10 | 8 |
| Şəhadət barmağının dırnaq falanqasının tam itirilməsi | 5 | 3 |
| Baş barmağın və şəhadət barmağının eyni zamanda amputasiyası | 35 | 25 |
| Şəhadət barmağından savayı baş barmağın və digər barmağın tam itirilməsi | 25 | 20 |
| Baş və şəhadət barmağından savayı iki barmağın tam itirilməsi | 12 | 8 |
| Baş və şəhadət barmağından savayı üç barmağın tam itirilməsi | 20 | 15 |
| Baş barmaq daxil olmaqla dörd barmağın itirilməsi | 45 | 40 |
| Baş barmaqdan savayı dörd barmağın itirilməsi | 40 | 35 |

| | | |
|---|---|---|
| Orta barmağın tam itirilməsi | 10 | 8 |
| Baş və şəhadət barmaqlarından savayı bir barmağın tam itirilməsi | 7 | 3 |

## AŞAĞI ƏTRAFLAR

| **Əlillik** | **Sığorta məbləğindən %-lə** |
|---|---|
| Ombanın tam itirilməsi (yuxarı hissəsi ) | 60 |
| Ombanın (aşağı hissəsinin) və ayağın tam itirilməsi | 50 |
| Ayaq pəncəsinin tam itirilməsi (baldır – ayaqbarmağının disartikulyasiyası (parçalara bölünməsi)) | 45 |
| Ayaq pəncəsinin qismən itirilməsi (topuqaltı-sümüyünün disartikulyasiyası (parçalara bölünməsi)) | 40 |
| Ayaq pəncəsinin qismən itirilməsi (orta ayaq dırnağının disartikulyasiyası (parçalara bölünməsi ) | 35 |
| Ayaq pəncəsinin qismən itirilməsi (ayaq darağı – ayaq dırnağı arxasının disartikulyasiyası (parçalara bölünməsi)) | 30 |
| Aşağı ətrafların tam iflici (müalicəolunmaz sinir zədələnməsi) | 60 |
| Xarici dizaltı sinirinin tam iflici | 30 |
| Daxili dizaltı sinirin n tam iflici | 20 |
| Iki sinirin tam iflici (xarici dizaltı sinirinin və daxili dizaltı sinirinin tam iflici) | 40 |
| Ombanın yan hissəsinin ankilozu | 40 |
| Dizin ankilozu | 20 |
| Ombanın və ya hər iki ayaq sümüklərinin sümük maddəsinin itirilməsi (müalicəolunmaz hal) | 60 |
| Diz qapağının sümük maddəsinin itirilməsi və bununla bağlı fraqmentlərin əsaslı ayrılması və ayağın uzadılması (dartılması) zamanı hərəkətlərin məhdudlaşması | 40 |
| Diz qapağının sümük maddəsinin itirilməsi, hərəkətlərin saxlanılması şərti ilə | 20 |
| Aşağı ətrafların ən azı 5 sm qısaldılması | 30 |
| Aşağı ətrafların 3 sm-dən 5 sm–dək qısaldılması | 20 |
| Aşağı ətrafların 1 sm-dən 3 sm–dək qısaldılması | 10 |
| Ayaq pəncəsinin bütün barmaqlarının amputasiyası | 25 |
| Ayaq pəncəsinin baş barmağı da daxil olmaqla dörd barmağın amputasiyası | 20 |
| Ayaq pəncəsinin dörd barmağının tam itirilməsi | 10 |
| Ayaq pəncəsinin baş barmağının tam itirilməsi | 10 |
| Ayaq pəncəsinin iki barmağının tam itirilməsi | 5 |
| Ayaq pəncəsinin,baş barmaqdan savayı,bir barmağın amputasiyası | 3 |

SINIQLAR

| **SINIQ** | **Sığorta məbləğindən %-lə** |
|---|---|
| Omba və ya çanaq sümüyünün sınığı (bud sümüyü və büzdümdən savayı ):<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar,ən azı biri tam<br>d) Bütün digər sınıqlar | 100<br>50<br>30<br>20 |
| Omba və dabanın sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar,ən azı biri tam<br>d) Bütün digər sınıqlar | 50<br>40<br>30<br>20 |
| Baldır, körpücük sümüyü, topuq, dirsək oynağı, bazu və<br>ya bazu önü sümüyünün sınığı (bilək daxil olmaqla, lakin mil sümüyünün klassik sınığı istisna olmaqla):<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar,ən azı biri tam<br>d) Bütün digər sınıqlar | 40<br>30<br>20<br>12 |
| Aşağı çənənin sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>d) Bütün digər sınıqlar | 30<br>20<br>16<br>8 |
| Kürək, diz qapağı, döş sümüyü, əlin (barmaqlar və biləkdən savayı),ayaq pəncəsinin (barmaqlar və dabandan savayı) sınığı:<br>a) Bütün digər ağır sınıqlar<br>b) Bütün digər sınıqlar | 20<br>10 |
| Bazu önü mil sümüyünün klassik sınığı:<br>a) Ağır sınıqlar<br>b) Bütün digər sınıqlar | 20<br>10 |
| Onurğa sütunun sınıqları (büzdümdən savayı bütün fəqərələr):<br>a) Bütün kompresyon sınıqlar<br>b) Bütün tinəbənzər, köndələn çıxıntılar və ya çanaq sümüyünün sınığı<br>c) Onurğa sütunun bütün digər sınıqları | 20<br><br>20<br>10 |
| Bir və ya bir neçə qabırğanın, almacıq sümüyünün, büzdümün, yuxarı çənənin, burunun,bir və ya bir neçə ayaq barmaqlarının, bir və ya bir neçə əl barmaqlarının sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar,ən azı biri tam<br>d) Bütün digər sınıqlar | 16<br>12<br>8<br>4 |

Əgər fərdi qəzanın nəticələri sığortalanmış şəxsin həmin hadisənin baş verməsindən əvvəl mövcud olmuş hər hansı vəziyyəti və ya fiziki çatışmamazlıqları səbəbindən ağırlaşarsa, həmin nəticələrə münasibətdə bu sığorta ilə həyata keçiriləcək ödəniş məbləği, belə ağırlaşmanın xərcləri dəyərində azaldılır.

Yuxarıda göstərilməyən bədən xəsarətləri nəticəsində əmək qabiliyyətinin hər hansı daimi itirilməsinə görə ödəniş sığorta olunanın məşğuliyyət növü nəzərə alınmadan yuxarıda göstərilmiş bədən xəsarətləri ilə müqayisədə onların ağırlıq dərəcələrinə müvafiq olaraq veriləcəkdir.

Bu sığortanın əhatə etdiyi bir və ya bir neçə fərdi qəzaya münasibətdə sığorta müqaviləsi üzrə bir sığortalanmış şəxs üçün ödənilən məbləğ bir şəxs üçün müəyyən edilmiş ümumi sığorta məbləğini aşa bilməz.

**Maddə 15. Fərdi qəzanın nəticələrinin təzahür müddəti**

Fərdi qəza anından 12 ay müddətində baş verən və həmin fərdi qəzanın səbəb olduğu bədən xəsarətinin nəticəsi olan ölüm, fərdi qəza nəticəsində baş verən ölüm sayılır.

Əmək qabiliyyətinin daimi itirilməsinə görə ödənişlər, belə əmək qabiliyyətinin itirilməsinin fərdi qəza hadisəsinin nəticəsində baş vermiş olması, belə fərdi qəzanın baş vermə tarixindən 12 ay ərzində təzahür etməsi və 12 ay ərzində davam etməsi halında həyata keçirilir.

Əmək qabiliyyətinin daimi itirilməsi dedikdə, sığortalanmış şəxsin hər hansı peşə fəaliyyətilə məşğul olmasına tam mane olan və 12 ay davam edən və bu müddətin bitməsindən sonra bərpa olunması mümkün olmayan əmək qabiliyyətinin itirilməsi başa düşülür.

## BÖLMƏ 4

## SƏRNIŞINLƏRIN VƏ SÜRÜCÜNÜN TIBBI XƏRCLƏRI

**Maddə 16. Sığorta müqaviləsi**

Bu Qaydaların «Sərnişinlərin və Sürücünün Fərdi Qəza Sığortası» bölməsi üzrə sığorta təminatına daxil olması şərtilə sığortaçı sığortalı ilə razılaşır ki, əgər sığortanın qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsinin Bütün Bölmələrə aid olan Ümumi Istisnalarda və 1-ci və 3-cü Bölmələrə aid olan Xüsusi Istisnalarda göstərilmiş səbəblər istisna olmaqla, başqa səbəblərdən qəza törətməsi nəticəsində sığortalının (sürücünün), o cümlədən sərnişinlərin həyat və sağlamlığına ziyan vurularsa, sığortaçı sığortalıya (sürücüyə), sərnişinlərə və ya onların varislərinə, belə qəzanın nəticəsi olaraq çəkdikləri tibbi xərclərin əvəzini, həmin xərcləri təsdiq edən müvafiq sənədlərin sığortaçıya təqdim edilməsi şərtilə ödəyəcəkdir.

**Maddə 17. Sığorta ödənişi**

Belə tibbi xərclər üçün bir nəfərə ödənilməli olan məbləğ, bu qaydaların 3-cü Bölməsinə müvafiq olaraq sığorta müqaviləsi ilə müəyyən edilmiş və sığorta şəhadətnaməsində göstərilən sığorta məbləği həddində ödənilir. Sığorta müqaviləsinin 3-cü və 4-cü Bölmələri ilə ödənilməli olan bir nəfərlik ümumi məbləğ sığorta müqaviləsinin 3-cü Bölməsi üzrə sığorta müqaviləsində təsbit edilmiş bir nəfərlik ümumi sığorta məbləği ilə məhdudlaşır. Lakin, sığorta şəhadətnaməsində bundan daha aşağı limit nəzərdə tutularsa, sığorta ödənişinin maksimum həddi həmin məbləğlə məhdudlaşacaqdır.

Lakin, tibbi məsrəflər üçün sığortalı başqa sığorta növü üzrə ödəniş almaq hüququna malikdirsə, sığortaçı yuxarıda göstərilən hədlərə müvafiq olaraq yalnız belə ödəniş məbləğilə ümumi tibbi xərclər arasındakı fərqə görə məsuliyyət daşıyır.

## BÜTÜN BÖLMƏLƏRƏ AID OLAN ÜMUMI QAYDALAR

### Maddə 18. Müddəaların aidiyyatı

Bu Qaydaların sığortalıya aid olan bütün müddəaları sığorta müqaviləsində göstərilmiş nəqliyyat vasitəsini idarə etmək səlahiyyəti olan sürücüyə və sığortalanmış şəxslərə də eyni dərəcədə aid edilir.

Bu sığortanın məqsədləri üçün sığortalının fəaliyyətinə qanuna, sığorta müqaviləsinə, vəzifə təlimatlarına, etibarnaməyə və ya mövcud adətlərə müvafiq olaraq sığortalının adından çıxış etmək üçün səlahiyyətləndirilən işçilərinin, vəzifəli şəxslərinin və digər nümayəndələrinin hərəkətləri də aid edilir.

### Maddə 19. Sığorta təminatı

Bu Qaydalar avtomobil nəqliyyatı vasitələrinin kompleks sığortasını nəzərdə tutduğu üçün sığorta təminatı yalnız sığorta müqaviləsində (şəhadətnaməsində) göstərilmiş Bölmələr üzrə verilmiş hesab olunur. Sığorta şəhadətnaməsi ilə bu Qaydaların bir, bir neçə və ya bütün bölmələri üzrə sığorta təminatı verilə bilər. Belə olan halda tərəflər arasındakı münasibətlərə həmin Bölmənin müddəaları və bütün bölmələrə aid olan ümumi qaydalar tətbiq edilir, və sığortaçı yalnız həmin bölmə üzrə verilmiş təminata görə məsuliyyət daşıyır.

### Maddə 20. Bütün bölmələrə aid olan ümumi istisnalar

Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, aşağıdakı halların nəticəsində ortaya çıxan hər hansı zərərin əvəzi ödənilmir:

20.1 sığortalının (zərərçəkənin) qərəzli hərəkətləri;

20.2 Ionlaşma, radiasiya və yaxud nüvə yanacağının və ya nüvə tullantılarının istifadəsindən, həmçinin bu istisnanın məqsədləri üçün özünü dəstəkləyən hər hansı atom nüvəsinin parçalanması prosesi daxil olmaqla, nüvə yanacağının alovlanmasından ortaya çıxan radioaktivlik nəticəsində ətraf mühitin çirkləndirilməsindən bilavasitə yaxud dolayı yolla yaranan hər hansı məsuliyyət, zərər və ya ziyan;

20.3 Bu Qaydalara əsasən aşağıda göstərilən hər hansı bir hadisə nəticəsində hər hansı vəsatətin (tələbin) ortaya çıxması hallarında, sığortalı bədbəxt hadisənin, itkinin, zərərin və ya məsuliyyətin (qanunvericiliyin tələblərinin bunu tələb etdiyi dərəcədə yerinə yetirilməsi halları istisna olmaqla) aşağıda göstərilən hər hansı hadisələrdən və ya onların nəticələrindən asılılığının, əlaqəsinin və onların nəticəsi olmamasını sübut etməlidir. Zəruri sübutların olmaması halında, sığortaçı belə vəsatətə görə heç bir məsuliyyət daşımır;

Belə hadisələrə daxildir:

Müharibə, hərbi əməliyyatlar, xarici ölkələrin basqınları, düşmən aktları, hərbə bənzər əməliyyatlar (müharibənin elan olunub-olunmamasından asılı olmayaraq), vətəndaş müharibəsi, qiyamlar, buntlar, tətillər, ictimai intizamsızlıqlar, əmək ixtişaşları, üsyanlar, inqilablar,

hakimiyyətin qəsb olunması və qəsb edənlərin əməlləri, həbs qoyulma və ya müsadirə, yaxud bunları etməyə cəhd, və ya yuxarıda sadalanan hadisələrdən hər hansı birinin bilavasitə və ya dolayı nəticəsində, həmçinin qanunsuz və ya qərəzli hərəkətlər vasitəsi ilə və ya hər hansı qanunsuz təşkilatın adından və ya onunla birlikdə hərəkət edən şəxslər tərəfindən törədilən aktların nəticəsində baş verən hadisələr.

20.4. Avtonəqliyyat vasitəsinin zorla qanunsuz zəbt edilməsi halları istisna olmaqla, avtonəqliyyat vasitəsinin toksik, alkoqolik və narkotik sərxoşluq vəziyyətində olan şəxs tərəfindən idarə edilməsi;

20.5. Avtonəqliyyat vasitəsinin təlim məqsədilə, yarışlarda, sürət müsabiqələrində, sürət sınaqlarında, avtomobil rallilərində, dözümlülük sınaqlarında, o cümlədən avtonəqliyyat vasitələrinin satışı və icarəsi ilə bağlı hər hansı məqsədlə istifadə edilməsi;

20.6. Avtonəqliyyat vasitəsinin bu qaydalara əsasən avtomobili idarə etmək səlahiyyəti olmayan sürücü tərəfindən idarə edilməsi;

Bu qaydaların məqsədləri üçün *avtomobili idarə etmək səlahiyyəti olmayan sürücü* dedikdə:

- Avtomobili idarə etmək üçün sürücülük vəsiqəsi olmayan, sürücülük hüququndan müvəqqəti məhrum edilmiş və ya müvafiq avtomobili idarə etmək üçün etibarnaməsi, yaxud sürücülük hüququ verən digər hər hansı sənədi olmayan şəxs və/və ya
- Sığorta şəhadətnaməsində sığortalı və ya avtomobili idarə etmək hüququ olan sürücü kimi göstərilməmiş şəxs

başa düşülür.

20.7. Sunami, zəlzələ və ya vulkan püskürməsi;

20.8. Həddən artıq yükləmə və ya dartma da daxil olmaqla, avtonəqliyyat vasitəsinin texniki təyinatına və göstəricilərinə uyğun olmayan məqsədlərlə istifadə edilməsi;

20.9. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, avtonəqliyyat vasitələrinin istismarının qadağan edilməsinə əsas verən nasazlıqları olan avtonəqliyyat vasitəsinin istismar olunması;

20.10. Sığortalıya məxsus olan və ya ona etibar edilmiş, digər şəxslərə məxsus olan və sığortalının məsuliyyət daşıdığı iş və ya hər hansı digər təyinatlı paltarlara, qiymətli əşyalara və ya avtonəqliyyat vasitəsinin daxilində və ya üzərində daşınan zaman sığortalıya və ya digər şəxslərə məxsus olan hər hansı əmlaka ziyan dəyməsi və ya həmin paltarların və ya əmlakın məhv olması və ya oğurlanması;

20.11. Sığortalanmış avtonəqliyyat vasitəsinin sığortaçının razılığı olmadan hər hansı digər avtonəqliyyat vasitəsini yedəkləməsi zamanı baş verən hər hansı zərər, xəsarət və ya yaranan məsuliyyət.

20.12. Avtonəqliyyat vasitəsinin hər hansı digər nəqliyyat vasitəsinə mindirilməsi, düşürdülməsi və ya avtonəqliyyat vasitəsinin hər hansı digər nəqliyyat vasitəsilə daşınması zamanı yaranan zərər və ya məsuliyyət;

20.13. Avtonəqliyyat vasitəsinin yüklənməsi və ya boşaldılması zamanı yaranan zərər və ya məsuliyyət;

20.14. Avtonəqliyyat vasitəsinin sığortanın ərazisindən kənarda istismar olunması zamanı yaranan zərər və ya məsuliyyət;

20.15. Sərnişinlərin ödənişli daşınması (şəhadətnamədə göstərilməsi şərtilə taksi və ictimai nəqliyyat istina olmaqla) zamanı yaranan zərər və ya məsuliyyət;

20.16. Avtonəqliyyat vasitəsinin hər hansı qeyri-qanuni ticarət, qaçaqmalçılıq, daşıma və ya cinayət məqsədilə istifadə edilməsi zamanı yaranan zərər və ya məsuliyyət;

20.17. Xidmət və ya iş vaxtı baş verməsindən asılı olmayaraq, avtonəqliyyat vasitəsinin sığortalının ailə üzvləri, işçiləri və ya ona xidmət edən şəxslər tərəfindən qaçırılması, oğurlanması və ya bunlara cəhd edilməsi zamanı yaranan zərər və ya məsuliyyət;

20.18. Sığorta şəhadətnaməsində xüsusi olaraq bu məqsədlə istifadə edilməsi göstərilməmişdirsə, avtonəqliyyat vasitəsinin təyyarələrin enib qalxdığı təyyarə limanı, eniş zolağı, aerodrom və ya hərbi bazanın ərazisində istifadə edilməsi zamanı yaranan zərər və ya məsuliyyət;

20.19. Sığorta şəhadətnaməsində xüsusi olaraq bu məqsədlə istifadə edilməsi göstərilməmişdirsə, aşağıdakı məqsədlər üçün hər hansı avtonəqliyyat vasitəsinə sahiblik, istifadə, texniki xidmət və saxlama ilə əlaqədar baş verən hər hansı zərər, xəsarət və yaranan məsuliyyət:

a) nitroqliserin, dinamit və bunlara bənzər başqa partlayıcı maddələrin daşınması;
b) mayeləşdirilmiş neftin və ya neft məhsullarının tarasız daşınması;
c) maye, sıxılmış qaz və ya qazabənzər formada kimyəvi maddələrin və ya qazların daşınması;
d) ictimai yollardan kənarda podratçının avadanlığı kimi istifadəsi.

## Maddə 21. Sığorta ərazisi

Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta təminatı Azərbaycan Respublikasının ərazisini əhatə edir. Sığorta ərazisi, sığortaçının bu barədə qabaqcadan xəbərdar edilməsi və onun yazılı formada razılığının alınması şərtilə genişləndirilə bilər.

## Maddə 22. Sığorta haqqının ödənilməsi

Sığorta haqqı onun sığortaçının bank hesabına daxil olduğu və ya sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur. Sığorta haqqı (onun razılaşdırılmış ilk hissəsi və sonrakı hissələri) sığorta şəhadətnaməsində göstərilən tarix(lər)də ödənilməlidir. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta haqqı (və ya onun razılaşdırılmış ilk hissəsi) göstərilən müddət ərzində sığortaçıya ödənilmədikdə, həmin müddət bitdiyi andan sığorta müqaviləsi etibarsız sayılır. Əgər sığorta haqqının hissələrlə ödənilməsi nəzərdə tutulmuşdursa, sığorta haqqının sonrakı hissələri sığorta müqaviləsində göstərilmiş müddət ərzində ödənilməməsi halında, tərəflərin başqa cür razılaşdığı hallar istisna olmaqla, sığorta müqaviləsi sığorta haqqının ödənilmiş hissəsinə müvafiq olan müddətin bitməsindən sonra öz qüvvəsini itirir.

## Maddə 23. Valyuta haqqında qeyd-şərt

Sığorta məbləğləri, azadolma məbləğləri və tələblər xarici valyuta ilə ifadə olunmuşdursa, bütün ödənişlər ya Azərbaycan Respublikası Milli Bankının ödənişin həyata keçirildiyi tarixə olan rəsmi məzənnəsi əsasında Azərbaycan manatı ilə, ya da Azərbaycan Respublikasının valyuta qanunvericiliyinə müvafiq olduğu hallarda hər hansı xarici valyuta ilə həyata keçirilə bilər.

Əgər sığorta ödənişinin verilməsi üçün əsas olan sənədlər Azərbaycan manatı və ya sığorta müqaviləsinin valyutasından fərqli valyutada ifadə olunmuşdursa, sığorta müqaviləsinin ifadə olunduğu valyutaya çevirmə Azərbaycan Respublikası Milli Bankının həmin sənədin buraxıldığı tarixə uyğun rəsmi məzənnəsi əsasında həyata keçirilir.

## Maddə 24 Sığorta riskindəki dəyişikliklər

Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı sığorta müqaviləsi bağlanan zaman sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə biləcək və ona məlum olan bütün digər hallar, xüsusən də aşağıdakı hallar barədə sığortaçıya təxirə salınmadan məlumat verməlidir:

1. Icarə, girov və ya hər hansı digər mülki-hüquq müqaviləsi əsasında avtonəqliyyat vasitəsinin və/və ya onun əlavə avadanlığının üçüncü şəxslərə verilməsi;
2. Avtonəqliyyat vasitəsinə mülkiyyət hüququnun üçüncü şəxslərə keçməsi;
3. Sığortalanmış avtonəqliyyat vasitəsinin sığorta hadisəsi olmayan hadisə nəticəsində ciddi zədələnməsi və ya məhv olması;
4. Avtonəqliyyat vasitəsinin ərizə formasında göstərilmiş məqsədlərdən fərqli məqsədlər üçün istifadə edilməsi;
5. Avtonəqliyyat vasitəsinin Dövlət Yol Polisi orqanlarında qeydiyyatdan çıxarılması və ya avtonəqliyyat vasitəsinin Dövlət Yol Polisi orqanlarında təkrar qeydiyyata salınması;
6. Avtonəqliyyat vasitəsinin qeydiyyat sənədlərinin itirilməsi, oğurlanması və ya dəyişdirilməsi;
7. Avtonəqliyyat vasitəsinin gövdəsinin və ya mühərrikinin dəyişdirilməsi;
8. Avtonəqliyyat vasitəsinin açarlarının itirilməsi;
9. Sığorta müqaviləsinin şərtlərinə müvafiq olaraq, avtomobili idarə etmək səlahiyyəti olan sürücülərin siyahısında dəyişikliklərin edilməsi;

Sığortaçı sığorta riskinin artmasına gətirib çıxaran hallar haqqında məlumat əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:

1. Sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək, və/və ya
2. əlavə sığorta haqqının ödənilməsini tələb etmək, və ya
3. belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsini ləğv etmək.

## Maddə 25. Zərərlərin qarşısının alınması və azaldılması

Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur. Sığortalının belə tədbirləri görməməsinin birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir. Avtonəqliyyat vasitəsini xilas etmə, bərpa etmə və ya onun qorunub saxlanması məqsədi ilə görülən bütün belə tədbirlər bütün maraqlı tərəflərin mənafeyi üçün həyata keçirilmiş hesab edilir və tərəflərdən heç birinin hüquqlarına təsir etmir.

Belə tədbirlərin görülməsi zamanı sığortalı sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir.

Zərərlərin qarşısını almaq və ya həcmini azaltmaq üçün sığortalı mümkün tədbirləri görmədikdə belə tədbirlərin görülməməsi nəticəsində zərər məbləğində baş verən artım sığortaçı tərəfindən ödənilməyə bilər.

## Maddə 26. Sığortaçıya məlumat vermək və sığorta hadisəsini sübut etmək vəzifəsi

Sığortalı müqavilə bağlanarkən özünə məlum olan bütün əhəmiyyətli halları sığortaçıya bildirməlidir. Sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən hallar əhəmiyyətli sayılır. Belə bir hal da əhəmiyyətli sayılır ki, sığortaçı bu hal haqqında sığortalıya yazılı şəkildə aydın və birmənalı sorğu verir.

Əgər, sığortaçıya əhəmiyyətli hallar haqqında məlumat verilməzsə, o, müqavilədən imtina edə bilər. Sığortaçı gizli haldan xəbərdar idisə və ya sığortalı bu halı bildirməməkdə təqsirli deyildirsə, müqavilənin xitamı yolverilməzdir. Əhəmiyyətli hal haqqında bildirişdə yanlış məlumatlar olduqda da sığortaçı müqavilədən imtina edə bilər. Əgər məlumatların dəqiqsizliyi sığortaçıya məlum idisə və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli deyildirsə, müqavilədən imtina edilməsi yolverilməzdir. Bu məlumatlar haqqında bildiriş verildikdən sonra bir ay ərzində sığortaçı müqaviləni ləğv edə bilər.

Sığortalı təhlükə hallarına dair yazılı suallara cavab verməli olduqda, əgər o, barəsində suallar qoyulmamış halların üstündən qəsdən sükutla keçərək onları bildirməzsə, sığortaçı bir ay ərzində müqaviləni ləğv edə bilər. Bu müddət məlumat vermək vəzifəsinin pozulmasından sığortaçının xəbər tutduğu andan başlanır. Sığortalıya müqavilənin ləğv edilməsi haqqında məlumat verilməlidir.

Sığortaçı müqaviləni sığorta hadisəsi baş verdikdən sonra ləğv etdikdə, əgər barəsində məlumat vermək vəzifəsi pozulmuş hal sığorta hadisəsinin baş verməsinə və sığortaçının öz vəzifələrini yerinə yetirməsinə təsir göstərməyibsə, o öz vəzifələrini yerinə yetirməkdən azad edilmir.

Müqavilə bağlandıqdan sonra təhlükənin artması müqavilənin bağlanmasına mühüm təsir göstərə bilərsə, sığortalı təhlükənin artması barədə sığortaçıya dərhal məlumat verməlidir. Bu halda sığortaçının bir aylıq müddəti gözləməklə müqaviləni ləğv etmək və ya sığorta haqqının müvafiq surətdə artırılmasını tələb etmək ixtiyarı vardır. Əgər sığortalı təhlükənin artmasını qəsdən doğurmuşdursa, sığortaçı müddəti gözləmədən müqaviləni ləğv edə bilər.

Sığorta hadisəsinin baş verməsindən xəbər tutan kimi sığortalı ləngimədən bu barədə sığortaçıya məlumat verməlidir. Sığorta hadisəsi baş verdikdən sonra sığortaçı sığorta hadisəsinin və (və ya) sığorta ödənişi miqdarının müəyyənləşdirilməsi üçün zəruri olan hər cür məlumatları sığortalıdan tələb edə bilər. Əgər sığortalı məlumat vermək vəzifəsini yerinə yetirməsə, lakin bunun nəticəsində sığortaçının mənafeləri əhəmiyyətli dərəcədə pozulmasa, sığortaçı öz vəzifəsindən azad edilməsinə əsas verən razılaşmaya istinad edə bilməz. Sığortaçı sığorta hadisəsi baş verdikdən və sığorta ödənişinin miqdarı müəyyənləşdirildikdən sonra öz vəzifələrini icra etməlidir.

Sığortalı polis orqanlarını (oğurluq, qaçırma və ya vandalizm, həmçinin digər cinayət və ya inzibati xəta baş verməsinin ehtimal edilə bildiyi hallarda), o cümlədən yol polisini (yol nəqliyyat hadisəsi zamanı), sığorta müqaviləsi üzrə sığorta ödənişinin verilməsi üçün əsas ola biləcək hadisənin baş verməsi barədə xəbərdar olduğu və ya buna borclu olduğu tarixdən dərhal sonra, sığortaçını, sığortaçının təyin etdiyi assistans şirkətini və qanunvericiliklə tələb olunan hər hansı digər səlahiyyətli qurumları isə ağlabatan ən qısa müddətdə hər bir halda ən geci 24 (iyirmi dörd) saat ərzində məlumatlandırmalıdır.

Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu zərərin məbləğini sübut etmək vəzifəsi sığortalının üzərinə düşür və sığortalı qanunvericilik və formalaşmış təcrübə ilə tələb olunan sənədlər də daxil olmaqla sığortaçını bütün zəruri sənədlərlə təmin etməlidir.

Avtonəqliyyat vasitəsinin oğurlanması və ya qaçırılması hallarında sığortalı sığortçıya avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini və avtonəqliyyat vasitəsinin açarlarını (bütün komplektlərini) təhvil verməlidir. Sığortalı bunları sığortaçıya təhvil vermədiyi təqdirdə səbəbləri göstərməklə yazılı surətdə izahat verməlidir.

**Maddə 27. Sığortacı tərəfindən nəzarət**

Əgər sığortanın qüvvədə olduğu müddət ərzində avtonəqliyyat vasitəsi məhv olarsa, və ya ona maddi ziyan dəyərsə, sığortalı avtonəqliyyat vasitəsinin təmirinə başlamadan və maddi ziyanın fiziki sübutları itməmişdən (məhv edilməmişdən) əvvəl avtonəqliyyat vasitəsini yoxlamaq üçün sığortacıya lazımi qədər vaxt və imkan verməlidir.

Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının bütün hərəkətləri üzərində nəzarət etməli və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır. Sığortalı sığortacının tələbi ilə ona imkan dairəsində komək etməlidir. Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda sığortaçı öz hesabına sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır. Sığortalı sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət edə, saziş bağlaya və ya vəd verə bilməz.

**Maddə 28. Sığorta ödənişinin hesablanması**

Sığorta müqaviləsində azadolma məbləği kimi göstərilmiş məbləğ sığortaçı tərəfindən əsaslı kimi qəbul edilən hər bir sığorta vəsatətinin (tələbinin) və/və ya bir hadisə üzrə irəli sürülən bir neçə vəsatətin yekun məbləğindən çıxılır və sığortaçı belə vəsatətin və ya vəsatətlərin azadolma məbləği çıxıldıqdan sonra qalan məbləği üçün məsuliyyət daşıyır.

Azadolma məbləğinin tətbiqindən əvvəl sığortaçı tərəfindən əsaslı kimi qəbul edilən hər bir vəsatətə və ya eyni hadisə üzrə bir neçə vəsatətə münasibətdə ödəniləcək sığorta ödənişinin məbləği sığorta müqaviləsinin müvafiq bölməsində göstərilmiş müvafiq sığorta məbləğini və məsuliyyət hədlərini aşmamalıdır.

Sığortalının üçüncü tərəfdən təzminat alması halında, bu təzminatın məbləği azadolma məbləğinin tətbiqindən əvvəl sığorta ödənişi məbləğindən çıxılır.

Sığorta ödənişinin həyata keçirildiyi tarixə sığorta haqqı tam ödənilməmişdirsə, sığortaçı, ödəniş vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı (haqqları) məbləğini sığorta ödənişi məbləğindən çıxmaq hüququna malikdir.

Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində həyata keçirilən sığorta ödənişinin ümumi məbləği sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hər bir sığorta hadisəsi üçün azadolma məbləğinin çıxılmasından əvvəl, sığorta müqaviləsində göstərilmiş müvafiq sığorta məbləğlərini və məsuliyyət həddlərini aşmamalıdır.

**Maddə 29. Sığorta ödənişinin verilməsi**

Qanunvericiliklə və bu Qaydalarla nəzərdə tutulmuş sığorta ödənişini verməkdən imtina edilməsi halları istisna olmaqla, sığortaçı və yaxud sığortaçının təyin etdiyi ekspert şirkəti sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra ən son sənəd daxil olduqdan 15 (on beş) gün ərzində

ödəniş aparılmasının forması, qaydası və sairlə əlaqədar məlumatları əks etdirən ödənişə əsas verən sənədi (akt, razılaşma, protokol və s.) tərtib edir və razılaşdırmaq üçün bu sənədi, bundan sonra bu maddə daxilində «vəsatət edən» adlandırılacaq sığortalıya və/və yaxud sığorta olunan şəxsə, və/və yaxud üçüncü səxsə təqdim edir.

Vəsatət edən ödənişə əsas verən sənədi imzaladıqdan sonra, onu sığortaçıya qaytarır və sığortaçı bu sənədi aldığı gündən etibarən 5 (beş) gün ərzində sığorta ödənişini həyata keçirir.

Sığorta ödənişini verməkdən imtina halları olduqda, sığortaçı hadisə ilə bağlı bütün sənədləri aldıqdan sonra ən son sənəd daxil olduqdan 5 gün ərzində ödəniş verməkdən imtina qərarı barədə imtinanın səbəblərini göstərməklə vəsatət edənə yazılı rəsmi məlumat verir.

## Maddə 30. Tələb olunan sənədlər

Sığorta hadisəsi baş verdikdə sığortalı sığortaçıya aşağıdakı sənədləri təqdim etməlidir:

1. Avtomobil nəqliyyatı vasitələrinin Kasko (Gövdə) sığortası üzrə yol nəqliyyat hadisəsi baş verdikdə:

   - sığorta şəhadətnaməsi;

   - avtomobil nəqliyyatı vasitəsinin qeydiyyat şəhadətnaməsi;

   - müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi;

   - avtomobil nəqliyyatı vasitəsinin idarə olunmasına dair müvafiq etibarnamə (və ya icarə müqaviləsi);

   - sığorta ödənişi üzrə ərizə;

   - avtomobil nəqliyyatı vasitəsini idarə edən şəxsin sürücülük vəsiqəsi;

   - yol nəqliyyat hadisəsi barədə səlahiyyətli orqan tərəfindən tərtib edilmiş protokol;

   - yol nəqliyyat hadisəsi barədə səlahiyyətli orqan tərəfindən tərtib edilmiş sxem-protokol;

2. Oğurluq, partlayış və yanğın hadisələri baş verdikdə hadisəni təsdiq edən müvafiq dövlət orqanı tərəfindən verilmiş arayış;

3. Mülki məsuliyyət sığortası və sərnişinlər və sürücünün fərdi qəza sığortası üzrə həyat və sağlamlığa dəymiş zərərlər hallarında həmçinin ölümü və əmək qabiliyyətinin itirilməsini təsdiq edən (ölüm haqqında şəhadətnamə, həkim arayışı və s.) sənədlər.

4. Sığorta hadisəsinin mahiyyətindən asılı olaraq digər sənədlər də sığortaçı tərəfindən tələb oluna bilər.

## Maddə 31. Subroqasiya (geriyə tələb) hüququ

Sığorta ödənişinin həyata keçirilməsindən sonra, bu sığorta ilə əvəzi ödənilən zərərlər üçün məsuliyyət daşıyan şəxsə qarşı sıgortalının tələb irəli sürmək hüququ həmin ödəniş məbləği həddində subroqasiya qaydasında sığortaçıya keçir.

Sığortalı sığortaçınının subroqasiya hüququnun təmin edilməsi üçün öz imkanları çərçivəsində ona hər cür kömək göstərməli və sığortaçını tələbin irəli sürülməsi üçün zəruri olan bütün sənədlər, sübutlar və məlumatlarla təmin etməlidir.

Sığortalının hər hansı məhkəmədən kənar razılışma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təzminat məbləğləri ilk növbədə sığortaçının sığorta

müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcəkdir. Sığortaçı ilə sığortalı arasında başqa cür razılaşdırıldığı və belə razılaşmanın sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, sığortalının zərərlər üçün məsuliyyət daşıyan şəxsə qarşı tələb hüququndan imtina etməsi və ya sığortalının günahı üzündən bu hüquqdan istifadənin mümkün olmaması halında, sığortaçı sığorta ödənişini bütünlüklə və ya qismən ödəmək öhdəliyindən azad olunur və ödənilmiş sığorta ödənişinin tam və ya müvafiq hissəsinin qaytarılmasını tələb etmək hüququnu əldə edir.

## Maddə 32. Sığorta ödənişini verməkdən imtina

Aşağıdakı hallarda sığortaçı sığortalıya (faydalanan şəxsə) sığorta ödənişini verməkdən imtina etməyə haqlıdır:

1. Sığortalının riskin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər, təhlükənin artması barədə bildiyi və ya bilməli olduğu məlumatları verməməsi və ya qəsdən yanlış məlumatlar verməsi;
2. Bu qaydalarda nəzərdə tutulan mühüm şərtlərin yerinə yetirilməməsi ilə sığorta hadisəsi arasında əlaqənin olub-olmamasından asılı olmayaraq sığortalının sığorta müqaviləsində nəzərdə tutulan belə şərtlərə əməl etməməsi;
3. Yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib çıxaran, sığortalı tərəfindən sığorta müqaviləsinə, bu Qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməməsi. Bu halda sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin məbləği, belə yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır;
4. Sığortaçı tərəfindən sığorta hadisəsinin baş verməsi səbəblərinin araşdırılmasına sığortalı tərəfindən maneçilik törədilməsi;
5. Sığortalının sığorta hadisəsinin yaranmasına yönəldilən qərəzli hərəkətlər və ya sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayətlər törətməsi;
6. Sığortalının sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri qəsdən görməməsi;
7 Sığorta obyekti və hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi.

## Maddə 33. Ikiqat sığorta

Sığortalının sığorta müqaviləsində əhatə olunan risklərlə bağlı zərərlər üçün digər sığortaçı (lar)dan ödəniş almaq hüququ varsa, başqa sözlə əgər sığortalı eyni mənafeyi eyni riskdən bir neçə sığortaçıda sığortalamışdırsa və sığorta məbləğlərinin məcmusu sığorta dəyərindən yüksəkdirsə və ya digər sığortaçı ilə sığorta müqaviləsi olmasaydı, hər bir sığortaçının verməli olduğu ödənişlərin ümumi məbləği başqa səbəblərə görə bütün zərərdən yüksəkdirsə (ikiqat sığorta), sığortaçılar sığortalı ilə bağladıqları müqavilədə nəzərdə tutulan məbləğ həddində sığortalı qarşısında birgə borclular kimi, hər birinin məsuliyyət həddinə mütənasib olaraq məsuliyyət daşıyırlar. Lakin, sığortalının məcmu halda real zərərin miqdarından yüksək olan məbləği almağa ixtiyarı yoxdur.

Mənafeyini eyni zamanda bir neçə sığortaçıda sığorta etdirən şəxs bu barədə sığortaçılardan hər birinə dərhal məlumat verməlidir. Məlumatda bütün sığortaçıların şəxsiyyəti və sığorta məbləğinin miqdarları göstərilməlidir.

**Maddə 34. Sığorta müqaviləsinə xitam verilməsi**

Sığorta müqaviləsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər. Bu barədə tərəflər bir-birini, qanunla müəyyən edilən hallar istisna olmaqla, 3 aydan 1 ilədək, 1 illik, 1 ildən 5 ilədək müddəti olan sığorta müqaviləsi halında azı 30 gün, 3 ayadək müqavilələr üzrə azı 5 gün əvvəl yazılı formada xəbərdar etməlidirlər. Sığorta müqaviləsi müqavilənin ləğvi tarixini özündə əks etdirən xəbərdarlığın sığortalının və ya sığortaçının müqavilədə göstərilən ünvanına göndərilməsilə, bu xəbərdarlıqda göstərilmiş tarixdən ləğv edilmiş sayılır. Bu xəbərdarlığın poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərilən kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi üçün kifayətdir və sığorta müqaviləsi xəbərdarlıqda göstərilən tarixdən və vaxtdan etibarsız sayılır.

Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının bu sığorta qaydalarını pozması ilə bağlıdırsa o, sığorta haqlarını sığortalıya bütünlüklə qaytarır.

Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığortalının sığorta haqlarını bütünlüklə qaytarır; əgər bu tələb sığortalının bu sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.

Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında, sığortaçı, bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və/və ya depozit sığorta haqqının qısa müddətli hissəsini saxlamaq hüququna malikdir.

**Maddə 35. Sığorta marağının itməsi**

Avtonəqliyyat vasitəsinin satılması və yaxud ondan istifadə hüquqlarının digər şəxsə verilməsi halında, sığortaçının razılığı olmasa, sığorta müqaviləsi ilə verilən sığorta təminatı, yeni sahibə (alıcıya) və ya avtonəqliyyat vasitəsinə dair hüquqları əldə edən hər hansı digər şəxsə aid edilmir. Bu halda sığortaçı ilə sığortalı və ya avtonəqliyyat vasitəsi xeyrinə özgəninkiləşdirilən şəxs arasında yeni sığorta müqaviləsi bağlanıla bilər.

Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı vəfat etdikdə, varislərin və ya icraçıların sığortalının ölümündən sonra 30 gün müddətində sığortaçı ilə razılaşdırılması halında sığorta müqaviləsi həmin müqavilənin qüvvədən düşmə müddətinə qədər sığortalının varisləri və ya miras qoyulan əmlakın üzərində nəzarəti həyata keçirən icraçılar üçün öz etibarlılığını saxlamağa davam edəcəkdir.

**Maddə 36. Tərəflərin məsuliyyəti**

Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məsuliyyət daşıyırlar.

**Maddə 37. Mübahisələrin həlli qaydası**

Tərəflər arasında fikir ayrılıqları ilk növbədə danışıqlar yolu ilə həll edilir. Danışıqlar yolu ilə fikir ayrılıqları həll edilmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının aidiyyəti məhkəmələrində baxılır.

**Maddə 38. Tətbiq edilən qanunvericilik və iddia müddətləri**

Bu Qaydalarla tənzimlənməyən hallar Azərbaycan Respublikasının mövcüd qanunvericiliyi ilə tənzimlənir.

Tərəflər öz iddialarını iddia müddətləri üzrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin tələblərinə uyğun irəli sürə bilərlər.